# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

12 (85) 02 iyul 2017-ci il

İctimai-siyasi qəzet


## Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Silahlı Qüvvələr Günü qeyd olunub




Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Silahlı Qüvvələrin yaranmasının 99-cu ildönümü münasibətilə tədbir keçirilib.

Sovet İttifaqı Qəhrəmanı, general-leytenant Hüseyn Rəsulbəyovun həyat və şərəfli döyüş yolundan bəhs edən sənədli filmin nümayişindən sonra ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirdə Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov Azərbaycan Silahlı Qüvvələrinin yaradılması tarixindən danışıb. Bildirib ki, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Kabinetinin qərarına əsasən, 1918-ci il iyunun 26-da birinci nizami hərbi hissə - əlahiddə Azərbaycan korpusu, avqustun 1-də isə Xosrov bəy Sultanovun rəhbərliyi ilə Hərbi Nazirlik yaradılıb. Qısa müddətdə Milli Ordu Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf qəzaları erməni-bolşevik işğalından xilas edib. Azərbaycanın Milli Ordusu Qarabağda ermənilərlə döyüşdə böyük uğurlar qazanıb. Azərbaycanın müstəqilliyini gözü götürməyən istilaçılardan ölkəmizin müdafiə edilməsində Hüseyn xan Naxçıvanski, İbrahim ağa Usubov, Kazım Qacar və başqalarının böyük xidmətləri olub. Ancaq 1920-ci ilin aprel işğalı Azərbaycanın milli ordusunun tam formalaşdırılmasına imkan verməyib.

Qeyd edilib ki, Azərbaycan oğulları nəyə qadir olduqlarını İkinci Dünya müharibəsində alman faşizminə qarşı döyüşlərdə də əzmlə nümayiş etdiriblər. Cəbhəyə yola salınan 700 min azərbaycanlının təqribən yarısı mərdliklə vuruşaraq bəşəriyyəti faşizm taunundan xilas edib. 124 həmvətənimiz Sovet İttifaqı Qəhrəmanı adına, minlərlə azərbaycanlı orden və medallara layiq görülüblər.

Vurğulanıb ki, hələ sovet dövründə milli hərbi kadrların hazırlanmasına xüsusi diqqət yetirən ümummilli lider Heydər Əliyev 1970-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseyinin təşkilinə nail olub. Ulu öndər azərbaycanlı gənclərin SSRİ-nin ixtisaslaşdırılmış hərbi məktəblərinə qəbuluna da çalışırdı. O dövrdə ali hərbi məktəbləri bitirmiş zabitlər müstəqilliyin bərpasından sonra müasir Azərbaycanın Silahlı Qüvvələrinin formalaşmasında müstəsna rol oynadılar. Bu məktəblərin məzunları habelə erməni təcavüzkarlarına qarşı mübarizədə mərdliklə vuruşdular.

Diqqətə çatdırılıb ki, Azərbaycanda müasir ordu quruculuğuna yalnız 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra başlanıb. Həmin dövrdən etibarən Silahlı Qüvvələrin təşkili istiqamətində mühüm addımlar atılıb.

Bu gün ölkədə aparılan ordu quruculuğu prosesindən bəhs edən Respublika Veteranlar Təşkilatının sədr müavini C.Xəlilov deyib: “Hazırda ordu quruculuğu prosesi Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Müasir və qüdrətli ordumuz Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə işğalı altındakı ərazilərimizi azad etməyə qadirdir. Ötən il aprel döyüşləri Silahlı Qüvvələrimizin gücünü, döyüş qabiliyyətini və əzmini aydın nümayiş etdirdi. Biz veteranlar buna inanır və bu işdə ordumuzun yanındayıq”.





Cəlil Xəlilov diqqətə çatdırıb ki, Azərbaycan Prezidentinin 1998-ci il 22 may tarixli Fərmanına əsasən, hər il iyunun 26-sı ölkəmizdə Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü kimi qeyd olunur. Silahlı Qüvvələrin yaradılmasının ildönümü xalqımız üçün mühüm hadisədir.

Tədbirdə veteranlar çıxış edərək Silahlı Qüvvələrin formalaşdırılması istiqamətində ölkədə həyata keçirilən mühüm tədbirlərdən, Azərbaycan əsgərlərinin qəhrəmanlıqlarından, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində görülən işlərdən danışıblar.

Sonda Azərbaycan Silahlı Qüvvələrinin xidmətdə fərqlənən bir qrup zabit və gənc əsgəri Respublika Veteranları Təşkilatının yubiley medalları və fəxri fərmanları ilə təltif olunub.



# Milli Qurtuluş Günü tariximizin ən şanlı səhifələrindən biridir

15 İyun - Milli Qurtuluş Günü Azərbaycan dövlətçilik tarixində mühüm hadisədir. Həmin günün müəllifi Azərbaycanın böyük dövlət xadimi ulu öndər Heydər Əliyevdir. Məhz iyunun 15-də ümummilli lider Heydər Əliyev hakimiyyətə yenidən gəldikdən sonra Azərbaycan dövlətçiliyi dağılmaqdan xilas oldu. Biz həmin günü tarixi yaddaşımızın ən şanlı səhifələrindən biri kimi xatırlayırıq. Milli Qurtuluş Günü Azərbaycan dövlətçiliyinin yenidən doğuluşu günüdür. Gənclər həmin günü unutmamalı, o dövrdəki hadisələri dərindən öyrənməlidirlər.

15 İyun - Milli Qurtuluş Günü münasibətilə Nərimanov Rayon İcra Hakimiyyətinin və Yeni Azərbaycan Partiyası (YAP) Nərimanov rayon təşkilatının təşəbbüsü ilə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatında keçirilən tədbirdə səslləndirilib.

Tədbirdə rayon rəhbərliyi, Milli Məclisin deputatları, rayonun idarə, müəssisə və təşkilatlarının, ictimaiyyətin nümayəndələri, elm və mədəniyyət xadimləri, veteranlar, gənclər iştirak ediblər.

“Yeni Azərbaycan” qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən, müasir, müstəqil Azərbaycanın inkişafında ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərindən danışıb. Bildirilib ki, 1993-cü ilin iyununda ölkədə böhran ən acınacaqlı həddə çatmışdı və belə bir anda xalqı vətəndaş qarşıdurmasından, səfalətdən, ölkəni parçalanmaq təhlükəsindən xilas etmək gücündə olan yalnız şəxs - Heydər Əliyev xalqına və dövlətinə sahib çıxdı. Həmin dövrdə qədirbilən xalqımız birləşərək ölkəni bürümüş acınacaqlı vəziyyətə qarşı iradəli gücünü ortaya qoydu, təkidlə bu dahi şəxsiyyətin hakimiyyətə qayıdışını tələb etdi. Bugünkü əmin-amanlıq, sabitlik, iqtisadi inkişaf üçün böyük fədakarlıqlar göstərən ulu öndər Heydər Əliyev xalqımızın təkidli tələbi ilə hakimiyyətə qayıdaraq uzaqgörən və müdrik siyasəti ilə Azərbaycanı ağır bəlalardan xilas etdi.

Milli Məclisin deputatı Adil Əliyev ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışının xalqımızda ruh yüksəkliyi yaratdığını vurğulayıb. O, həmin dövrün Azərbaycanın ən şərəfli tarixi kimi yaddaşlarda əbədi olaraq qalacağına, ulu öndər Heydər Əliyevin xatirəsinin xalqımızın qəlbində daim yaşayacağına əminliyini ifadə edib.



A.Əliyev Ulu öndərin siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycanda müasir müstəqil dövlət quruculuğunun, iqtisadi islahatların, neft strategiyasının təməlinin qoyulduğu, Ümummilli Liderin yorulmaz fəaliyyəti, yürütdüyü müdrik siyasət nəticəsində müstəqilliyimizin dönməz xarakter aldığı, hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu, milli ordunun formalaşdırılması, beynəlxalq aləmdə Azərbaycanın demokratik imicinin artması sahəsində böyük işlərin görüldüyünü diqqətə çatdırıb. Qeyd edilib ki, məhz Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsində Azərbaycanın iqtisadi qüdrəti artır, ölkəmizdə ictimai-siyasi sabitlik, onun beynəlxalq aləmdəki mövqeləri möhkəmlənir, xalqımızın sosial vəziyyəti günbəgün yaxşılaşır.




Digər çıxış edənlər Ulu öndərin Azərbaycan xalqının tarixində əvəzsiz xidmətlərindən bəhs ediblər. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş müdrik siyasətin respublikamızda bütün sahələri əhatə edən inkişafın, beynəlxalq arenada qazanılan yüksək nailiyyətlərin hazırda Ulu Öndərin siyasi kursunun ən layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyi bildirilib.

Natiqlər Ulu öndərin fəaliyyəti sayəsində hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolunda irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün yüksək tələblərə cavab verən normativ hüquqi bazanın yaradıldığını diqqətə çatdırıblar.

Tədbirdə xalqını sonsuz məhəbbətlə sevən ümummilli lider Heydər Əliyevin bütün həyatını, zəngin dövlətçilik təcrübəsini Azərbaycanın inkişaf etmiş sivil dövlətlər səviyyəsinə yüksəlməsinə həsr etdiyi vurğulanıb. Bu gün dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycanın daha da inkişaf edərək dünyanın ən qüdrətli ölkələri sırasına çıxaraq xalqımızın firavan gələcəyə və tezliklə böyük zəfərlərə doğru qürurla irəliləyəcəyinə inam ifadə olunub.

Sonda YAP-ın sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri, rayonun fəal gənclərinə fəxri fərman və hədiyyələr təqdim edilib.

# Qəhrəmanlar həmişə yaşayır



Şuşa görkəmli partiya və dövlət xadimlərinin ədəbiyyat və incəsənət ustalarının, məşhur alimlərin, əmək və müharibə qəhrəmanlarının Vətənidir. Həmyerlimiz olan istedadlı adamlardan biri də general-mayor Əmir Məmməd oğlu Rüstəmovdur.

Ə.Rüstəmov 1909-cu ildə Şuşada dəmirçi ailəsində anadan olmuşdur. O, ailə vəziyyəti ilə əlaqədar olaraq Aşqabada köçür.

Gənc Əmir Rüstəmov 1930-cü ildə Politexnik texnikumunu bitirir, 1932-ci ildə isə hərbi xidmətə çağırılır. O, 1938-ci ildə Moskvada hərbi mühəndislik institutunu bitirir. Həmin ildə də Hərbi Akadenmiyaya daxil olur.

1941-ci ildə təhsilini fərqlənmə diplomu ilə başa çatdırır.

Böyük Vətən müharibəsi başlananda faşistlərə qarşı amansız mübarizə aparmaq həmyerlimizin başlıca vəzifəsi olur. O, təmkinli tədbirləri ilə cəbhədən cəbhəyə keçir, bir-birinin ardınca rəşadət və qəhrəmanlıq nümunələri göstərir.

Qardaş Türkmənistan torpağında böyüyüb tərbiyə alan Ə.Rüstəmov öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirir, doğma Vətəninin keşiyində namusla dayanırdı. O, 1952-ci ildə Voroşilov adına Ali Hərbi Akademiyanı bitirir. 1955-ci ildə Əmir Rüstəmov general-mayor rütbəsi verilir. Sıravi əsgərimizdən general-mayor vəzifəsinədək yüksələn həmyerlimizin sinəsini indi 17 orden və mədal bəzəyirdi. O, Moskvada Ali Hərbi Akademiyada kənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsi ilə məşğul olmuşdur. 1985-ci ildə Moskva şəhərində vəfat etmiş, Novodeviçi qəbiristanlığında dəfn edilib.

İsmayılov İsmayıl

# "Həyatımın mənasını mənə ehtiyac duyulan vəzifədə, yerdə işləməkdə, aktiv fəaliyyətdə, vətənə xidmət etməkdə görmüşəm..."

"İlıq mart küləyi əsirdi... Torpağın ətrafa yayılan ətri küləyin qanadlarında dağa-daşa, yamaclara, düzənliklərə uçaraq hər tərəfdə yazın gəlişini müjdələyirdi. Dərindən nəfəsimi çəkib var səsimlə haray salmaq istəyirdim: İnsanlar, təbiət müharibəyə qarşıdır, ağaclarda tumurcuqlar görünür, torpaq, mina, qumbara və mərmi yox, əkinçinin zəhmətkeş əllərini gözləyir, onun bu xoşbəxt anlarını tarimar etməyək! Azərbaycan torpağı! Sən nə qədər bərəkətlisən, nə qədər zənginsən! Allah sənə hansı nemətləri bəxş etməyib?! Sənin üstün də, altın da xəzinədir! Vətəni sevək imandandır deyiblər. Hər birimiz ana torpağımızı sevməli, onu qorumalıyıq!"- Vətən sevgisini hər şeydən üstün tutan, hərbi mühəndis işinin kamil bilicisi Cəmşid Qasımovla söhbətimiz onun bu sözləri ilə başladı. Nəzərinizə onun avtobioqrafiyasından əsas məqamları çatdırmaq istərdik. Cəmşid Qurban oğlu Qasımov 22 iyul 1937-ci ildə Bərdə rayonunun Ərəblər kəndində anadan olmuşdur. Onun 5 yaşı olarkən atası və iki əmisi II Dünya müharibəsində yollanmış və atası və əmisi həlak olmuş, digər əmisi sağ qayıtmışdır. Orta məktəbi də elə doğulduğu Bərdə rayonunda bitirmişdir. O, 1957-ci ildə könüllü olaraq Sovet ordusuna getmiş, Moskvada yerləşən təlim alayında kursant kimi xidmət etmişdir. 1958-1962-ci illərdə Kalininqrad və Tümen şəhərlərində hərbi mühəndis məktəblərində təhsil alaraq leytenant rütbəsi alaraq, 1962-1969-cu illərdə Bakıdakı 4-cü Ordunun Ağdam şəhərində yerləşən mühəndis taborunda tağım və bölük komandiri vəzifəsində, 1969-1979-cu illərdə Xankəndində yerləşən 347 moto-atıcı alayda mühəndis xidməti rəisi, 1973-1979-cu illərdə Naxçıvan şəhərində 347 moto-atıcı alayda mühəndis xidməti rəisi və mühəndis istehkam taborunun komandiri vəzifəsində çalışmışdır. 1975-ci ildə Moskva şəhərində Kuybışev adına Mühəndis Akademiyasında hərbi təhsil almışdır.

Daha sonra Naxçıvan və Xankəndi qarnizonlarından hərbi hissə komandiri kimi mühüm dövlət əhəmiyyətli tapşırıqların icrası üçün ezam edilmişdim. (Stavropol,Krasnodar,Qazaxıstan,Tatarstan vilayətlərinə) və həmin tapşırıqları yüksək səviyyədə yerinə yetirilməsinə görə 1971-ci ildə SSRİ Ali Soveti tərəfindən mən "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir. 1914-cü ildən qalan ermənilərə məxsus 134 ədəd mərmi və partladıcılar Cəmşid Qasımov tərəfindən çıxarlaraq, şəhər ərazisindən hərbi təlim meydanına aparılaraq məhv edilmişdir.

O, Səbayıl Rayonu Hərbi komissarın müavini vəzifəsində, Bakıdakı hərbi "Alunit" zavodunun kadrlar rəisi vəzifəsində, AR Müdafiə Nazirliyində Mühəndis istehkam idarəsinin rəisi vəzifəsində xidmət etmişdir. Milli Ordumuzun quruculuq strukturunda mühəndis idarəsinin, mühəndis istehkamçı hərbi hissələrinin yaradılmasında və təşkilində şəxsi təşəbbüsü olmuşdur.





Qarabağ döyüşlərində fəal şəkildə iştirak edən Cəmşid Qasımov o günləri bugünkü kimi xatırlayır.



Sanki hər şey dünən olmuş kimi kövrələrək danışır: "1992-ci ilin martında Əsgəran ərazisində ağır döyüş əməliyyatı zamanı erməni quldurları tərəfindən idarə edilən mina fuqası partlayışından sonra huşumu itirmişdim, lakin döyüş meydanında özümə gəldikdən sonrada verilən xüsusi tapşırığı icra etmişəm. Döyüşə əmri general Dadaş Rzayev vermişdi. Döyüşdə yaralanmışam 2-ci qrup əliləm. Bu əməliyyatda 3 əskərim Şükürov Abbas, Quliyev Zülfiqar, Rzaquliyev Allahqulu yaralandılar. 1992-ci ilin may ayında Ağdam rayonunda Füzuli istiqamətinə gedən ərazidə, yəni Şıxbaba və Saybalı kəndlərinin yaxınlığında yerləşən keçmiş 4-cü Ordunun Mühəndis anbarı, döyüş sursatları və sürtkü-yanacaq materialı erməni işğalçılarının əlinə keçməməsi üçün məsuliyyəti tam öz üzərimə götürərək düşmən tərəfindən partladılmaması üçün 500 ton SYM-ı və 50 vaqon mühəndis sursatları çıxarılmasını təmin etdim. Ağdam şəhərinin ermənilər tərəfindən işğalı zamanı isə düşmənə qalmaması məqsədi ilə 500 ədəd mühəndis texnikaları çıxardaraq təhlükəsiz əraziyə və sonra Səngəçal qəsəbəsinə, Üçtəpə ərazisinə gətirilməsini təşkil etdim".

Cəmşid Qasımov 17 oktyabr 1992-ci ildə Müdafiə Nazirinin əmri ilə Qubadlıdan gəlib istehkamçı qrup yaradaraq, Füzuli şəhərinin mərkəzinə düşən və partlamayan 580 kq-lıq Aviabombanın təhlükəsizləşdirilməsi və məhv edilməsi tapşırığını müvəffəqiyyətlə yerinə yetirdiyinə görə Müdafiə nazirinin əmri ilə mükafatlandırılır.

Cəmşid Qasımov xatirələri o qədər ardıcıl və detallarla xatırlayırki... "31 dekabr 1993-cü ildən 01.01.1994-cü ilə keçən gecə Murov dağının "Ömər" aşırımında yolu minalardan təmizləyib və vurulmuş erməni tankının yanından yeni yol texnika ilə açılmasına rəhbərlik etdim. Sonra Müdafiə nazirinin əmri ilə həmin gecə Füzuli rayonu ərazisinə hücumun təşkilində iştrak etmək məqsədi ilə getmişəm və bu döyüşlərdə qoşunlarımızla 24 kənd və qəsəbəni, o cümlədən, Cocuq Mərcanlı kəndini azad etmişik.

1995-ci ilin 30 iyulunda isə Azərbaycan Respublikası Prezidentinin həyatına qəsd edilmə məqsədi üçün Sabunçu rayonu ərazisindən keçən körpünün altına qoyulmuş 120 kq partlayıcı maddənin zərərsizləşdirilməsini Prezident mühafizəsinin əməkdaşları ilə birlikdə təşkil etmişdik". 1992-ci ildən əsası Cəmşid Qasımov tərəfimdən yaradılmış mühəndis istehkamçı baza qoşunlarımızı hal-hazıra qədər fasiləsiz olaraq təmin edir. Onun təşəbbüsü ilə Bakı Ümumqoşun hərbi məktəbində də zabit kadrlarının hazırlanması üçün yeni Mühəndis istehkamçı kafedrası yaradılmışdır. Qısa vaxt ərzində sıravi istehkamçılar hazırlanıb və hərbi hissələrə göndərilmişdir. 1998-2001-ci illərdə Respublikada yaradılmış ANAMA mina təmizləmə agentliyində, Azərbaycan Respıblikasının DTX-nin Akademiyasında müəllim vəzifəsində işləmişəm.

Bütün həyatını mühəndis-istehkamçı sahəsinə həsr etmiş Cəmşid Qasımov xidmət etdiyi dövrdə tapşırıqların və əmrlərin icrasında heç bir pozuntuya yol verilməmişdir. Vətən qarşısında öz borcunu şərəf və layaqətlə yerinə yetirmişdir. Azərbaycan respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının kollektivi və "Azərbaycan Veteranı" qəzetinin redaksiya heyəti Cəmşid müəllimi 80 illik yubileyi münasibətilə təbrik edir, cansağlığı, həmişə belə gümrah olmağınızı arzu edirik. 57 yaşında Murova qalxan qəhrəmanımız deyir ki: ""Həyatımın mənasını mənə ehtiyac duyulan vəzifədə, yerdə işləməkdə, aktiv fəaliyyətdə, vətənə xidmət etməkdə görmüşəm. Mən elə indi 80 yaşımda da Murova qalxaram, bir hərbiçi kimi bu gün də vətəni müdafiə etməyə hazıram. Azərbaycanın ərazi bütövlüyünün tezliklə təmin ediləcəyinə əminəm. Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan Ordusu!"

*Səidə Abdullayeva,*
*Ülvi İbrahimli*

# Hüquqi məsləhətlər

**Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına Böyük Vətən müharibəsi iştirakçıları tərəfindən daxil olmuş ərizələrin çoxunda onlara nəqliyyat vasitələrinin verilməsi və qeydiyyata götürülməsinin tətbiqi qaydası barədə məlumatlandırılmalarını xahiş edirlər.**

**Bu suala cavab verilməsi Respublika Veteranlar Təşkilatının baş mütəxəssisi Əliş Muxtar oğlu Əliyevə həvalə olunub.**

Xüsusi nəqliyyat almaq üçün əlillərin avtomobil və motorlu araba ilə təmin edilməsi qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 5 avqust tarixli 433 saylı qərarı ilə tənzimlənir.

Bu qərara uyğun olaraq pulsuz avtomobil və motorlu araba Qarabağın Dağlıq hissəsində, onunla və Ermənistanla sərhəd rayonlarında Azərbaycan Respublikasın Erməni təcavüzündən müdafiə edərkən əlil olmuş şəxslərə növbədən kənar;

1990-cı ildə Bakı şəhərində və Respublikanın yaşayış məntəqələrində baş vermiş faciəli yanvar hadisələri zamanı, Çernobıl AEC-də qəza nəticələrini aradan qaldırmaqda iştirak edib əlil olmuş şəxslərə, II Dünya müharibəsi əlillərinə və onlara bərabər tutulanlara ümumi növbə ilə verilir.

Əlilin xüsusi nəqliyyat vasitəsi almağa tibbi göstəriciləri haqqında tibbi-sosial ekspert komissiyasının HƏEK-in (Həkim-Əmək Ekspert Komissiyası) rəyi avtomobil və motorlu arabanın növbəyə götürülməsi və verilməsi üçün əsasdır.

Avtomobil və motorlu araba almaq hüququ olan əlillərin istifadəsində göstərilən nəqliyyatın yalnız bir növü ola bilər.

Əlillərə pulsuz olaraq avtomobillər və motorlu arabalar istismar müddəti müəyyən edilmədən birdəfəlik verilir. Əlillər avtomobil və motorlu arabaları satmaq və bağışlamaq hüququna malik deyillər. Minik avtomobilini idarə etmək hüququ həm əlilə, həm də onunla eyni yaşayış məntəqəsində birgə yaşayan ailə üzvlərinə verilir.

Xüsusi avtomobil nəqliyyatı almağa hüquq verən, tibb göstəriciləri olan və onu idarə etməyə əks göstərişləri olmayan əmək əlillərinə minik avtomobil dəyərinin 100 faizi əlillik aldığı müəssisəsinin hesabına ödənilməklə verilə bilər. Əlillərin HƏEK-dən keçirilməsi müalicə profilaktika müəssisələrinin göndərişi əsasında həyata keçirilir.

Müalicə müəssisəsi xüsusi avtonəqliyyat almaq üçün əlili tam ətraflı müalicə edib, psixiatr, göz və qulaq-boğaz həkiminin müayinə nəticələri göstərilməklə, ona HƏEK-na göndəriş verir.

Qərar qəbul edilərkən müalicə-profilatika müəssisələrinin göndərişi 88 N-li forma və əlillik dərəcəsi, səbəbi barədə HƏEK arayışının əhalinin sosial müdafiəsi Mərkəzi tərəfindən təsdiq edilmiş surəti əsas götürülür.

Nəqliyyat vasitəsi ilə təmin edilməsinə dair tibbi göstəricilərin müəyyən edilməsi haqqında 5 gün müddətində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Bakı şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzinə, tibbi sosial ekspert komissiyaları tərəfindən göndərilən müalicə aktlarından çıxarış əlillərin qeydiyyata götürülməsi üçün əsasdır. Əlillər tibbi-sosial ekspert komisiyasından keçdikdən sonra qeydiyyata götürürlər və növbələri əsasında nəqliyyat vasitələri ilə təmin olunurlar.

Əlillərə özləri idarə edəcəyi avtomobilin növbə qaydasında verilməsi üçün (istər pulsuz, istərsədə dəyəri ödənilməklə) avtomaşının alınmasına dair HƏEK-nin müayinə aktından çıxarış və sürücülük vəsiqəsinin surəti əsas hesab olunur.

Ailə üzvünün idarə etməsi şərti avtomobil növbə qaydasında verilməsi üçün əsas HƏEK-nin müayinə aktından çıxarış, sürücülük vəsiqəsi olan üzvünün əlillə eyni yaşayış məntəqəsində birgə yaşamasına dair ayarış, ailə üzvünün sürücülük vəsiqəsinin surətidir.

Əlillərə avtomobil yalnız onlar sağ olduqda verilir. Pulsuz avtomobil və ya motorlu araba almış əlil vəfat etdikdən sonra avtomobil və ya motorlu araba onun ailəsinin mülkiyyətində qalır, Əmək və Əhalinin Sosial-müdafiəsi orqanlarının qeydiyyatından çıxarılır. Avtomobil və ya motorlu arabanın ailə azvülərindən birinin adına yenidən qeydiyyata götürülməsi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial müdafiəsi və Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial müdafiəsi nazirlikləri, Bakı şəhər Əhalinin Sosial müdafiəsi Mərkəzinin icazəsi ilə əlilın avtonəqliyyat sahibi kimi qeydiyyatda durduğu dövlət avtomobil müffətişliyi tərəfindən həyata keçirilir.

Ümumi mülkiyyətdə paya dair mübahisələr ailə üzvlərindən hər hansı birinin iddiası üzrə müəyyən olunmuş qaydada məhkəmə orqanları tərəfindən həll olunur.

Avtomobil və ya motorlu arabanın satılması üçün Əmək və Əhalinin Sosial müdafiəsi orqanlarının icazəsi tələb olunmur.

Sənədlərin qəsdən düzgün olmayaraq tərtib edilməsi və avtomobil, yaxud motorlu arabanın qanunsuz verilməsinə təqsirkar şəxs müəyyən olunmuş qaydada məsuliyyətə cəlb olunur.

# "Eyni gündə öləcəyik" - 75 illik əhd

Həyatı qırıq-qırıq xatırlayır. Amma xanımı haqqında danışanda gözləri sevgi ilə parıldayır, gülümsünür. Hiss olunur ki, ürəyi hələ də sevgi ilə döyünür. İnsanlar da ağac kimidir - illər keçdikcə, dərisi quruyur, çat verir, yaşlanır. Gözlər nurunu itirir, bədən əvvəlki hərəkətliliyini. Sonra bir quru can qalır, bir döyünən ürək... Bəlkə də ürəyi döyünməyə məcbur edən sevgi olmasa, o da çoxdan dayanardı... Əbədi sevgi haqqında eşidəndə hər zaman düşünərdim ki, görəsən həyatda həqiqətənmi əbədi sevgi var? Varmış. Bunu Famil Əliyevin evində gördüm, hiss etdim, əmin oldum. Famil babanın həyat yoldaşı Nənəş nənənin gözləri bu gün də sevgi ilə baxır. Hələ təbəssümü... Heç deməzsən, 90 yaşlı qadındır. Deyir ki, onu da həyatda saxlayan Familin sevgisidir. Əhd ediblər eyni gündə öləcəklər... Famil Əliyev 1918-ci ildə Cəbrayıl rayonunda anadan olub. Hazırda Əhmədli qəsəbəsində yaşayır. 99 yaşlı qocanın həyatının böyük bir hissəsi hafizəsindən silinib. O, yaşadığı həyatın müəyyən məqamlarını xatırlaya bilir. Bu yaxınlarda Famil Əliyevin evində oldum, özü az danışsa da, həyat yoldaşı Nənəş Əliyeva ilə maraqlı söhbətimiz oldu. F. Əliyev Böyük Vətən Müharibəsində iştirak edib qayıtdıqdan sonra, 1944-cü ildə Nənəş xanımla ailə həyatı qurub. "Elə günlərimiz olub ki, su tapmamışıq, su əvəzinə qan içmişik, qar içmişik. Oryol şəhərini almanlardan alanda ağır yaralandım. Mənim dərim çox zərifdir. Gec sağalır. Sağ ayağımdan qəlpə yarası almışdım. Yaralanandan sonra məni Bakıya qaytardılar. Dedilər ki, yaran sağalsın, qayıdarsan. Amma yaram sağalmırdı. 6 ay keçdi, ən güclü dərmanları qəbul edirdim, amma yara sağalmaq bilmirdi. Sonra məni ordudan buraxdılar" - danışır Famil baba. O, yaralanandan sonra Cəbrayıl rayonuna qayıdır. Burada həkimlərin böyük səyləri nəticəsində 6 ay sonra yarası sağalır. Deyir ki, yaranın yeri bu gün də qalır: "Mənim yaram sağalanda artıq müharibə qurtarmışdı. Mənə dedilər, onsuz da müharibə qurtarıb, daha sənə ehtiyac yoxdur. Ara-sıra həkimlər gəlib



vəziyyətimlə maraqlanırdılar". Cəbrayıla qayıdandan sonra Şirik, Hacılı, Nəzrə məktəblərdə direktor işləyir. Həyat yoldaşı Nənəş Əliyevanın sözlərinə görə, Famil Əliyev sakit adam olduğu üçün, hamı ona hörmət edir, xətrini çox istəyirmiş: "Onun yumşaq xasiyyəti var. Hansı kəndə gedirdisə, orada əmin-amanlıq yaradırdı". N. Əliyeva Famil müəllimlə tanışlığını belə xatırlayır: "Hərbidən qayıdan əsgərləri görməyə gedərdik. Familə də elə tanış olmuşduq. Mən belə deyildim e, elə gözəl idim. Əsmər, al yanaqlı qız idim. Ara-sıra Bakıya gedəndə deyirdilər ki, üzünə boya çəkmisən. Çox gözəl idim. Famil məni yanına gedəndə görüb bəyənmişdi. Eləcə ailə qurduq. O zaman mən 9-cu sinfi bitirmişdim"."Famil hansı rayona gedirdisə, məni də yanında aparırdı. Hamı Familin xasiyyətini sevirdi. Həmin il mən 10-cu sinifdə oxumalı idim, amma hamilə olduğum üçün utanırdım məktəbə getməyə. Amma Famil əl çəkmirdi ki, oxuyacaqsan. Famil harada direktor olurdusa, məni də müəllim təyin edirdilər. Haradasa 8-9 il müəllim kimi çalışdım. Uşaqlarıma da adam tutmuşdum, baxırdı. Hansı kənddə müəllimlər arasında davadalaş olurdusa, Famili ora göndərirdilər" - Nənəş nənə danışır. Onun sözlərinə görə, 7 övladları dünyaya gəlib, onlardan biri artıq dünyasını dəyişib: "Hazırda 3 oğlumuz, 3 qızımız var. Famillə mənə qızlarımız baxırlar". Qarabağ müharibəsindən sonra Famil müəllim də məcbur olaraq rayondan çıxmalı olub: "Bizim Cəbrayılda evimiz qurulu qaldı. Həmin vaxtlar Famil sovetliyin sədri idi. Deyirdilər ki, bu kəndi sülhlə saxlayır. Hamı çıxmışdı kənddən. Amma biz ikimiz qalmışdıq. Familə "zaparoji" ("Zaporojets" markalı avtomobil - red.) vermişdilər. Çıxmırdıq kənddən, deyirdik ki, ölsək, burada öləcəyik". "Bilirsiniz necə atırdılar? Həyətimizdə böyük tut ağacları vardı. Qırılıb tökülürdü yerə. Mənim İsmayıl adlı qardaşım oğlu var. Birinci o bizi axtarıb tapdı. Dedi ki, "qardaşın şəhid olub". Evimiz necə dolu idisə, elə də qaldı. O, bizi götürüb Mərcanlı kəndinə gətirdi. Bir müddət Mərcanlıda yaşadıq. Bu evi oğlum öz uşaqları üçün almışdı. Gətirib yığdı bizi evə. Dedi ki, "burdan nə qız, nə də oğul evinə gedin, kim sizi istəyirsə, özü gəlib sizi görsün". O oğlum bizə çox yaxşı baxıb. Biz uşaqlarımızın sayəsində bu qədər yaşamışıq" - N. Əliyeva bildirir. Deyir ki, ona tez-tez bu qədər bir yerdə yaşaya bilmələrinin sirri barədə sual verirlər. Həmişə cavab verib ki, ikisi də mülayim insan olduğu üçün yola gedə biliblər: "Bizə deyirlər ki, "75 il necə bir yerdə yaşaya bilmisiniz?" Deyirəm, biz bir-birimizi sevib ailə həyatı qurmuşuq. Biz heç vaxt bir-birimizi incitməmişik. Famil deyir ki, mən sənsiz bir gün də yaşaya bilmərəm. Bəzən ağlayır, deyir ki, mən səndən bir gün tez öləcəyəm ki, sənin ölümünü görməyim. Amma mən razı deyiləm. Demişəm ki, biz eyni gündə öləcəyik". "Yanımda bacım qızı qalırdı. O, Familə deyib ki, "Nənəş yoxdur". Bir də gördüm Famil qışqırıb, hönkürür, ağlayır "Ay Nənə, ay Nənə". Mən də balkonda idim. Səsinə gəlmişəm ki, nə olub, ay Famil, deyir "başına dönüm ay Nənəş, sənsiz qala bilmərəm". Famil deyir ki, "mən səninlə nəfəs alıram, sən olmayanda bağrım çatlayır". Bizim heç vaxt çətinliyimiz olmayıb. Atam da hər zaman bizə dayaq olub. Aramızda heç bir narazılığımız olmayıb. Küsdüyümüz an belə, olmayıb. Amma indi insanlar yola getmir, tez ayrılırlar. Bu, bizə xas xüsusiyyət olmayıb. Famil məndən bir dəqiqə də ayrı qala bilmir" - Əliyeva qeyd edir. Famil baba həyatı qırıq-qırıq xatırlayır. Amma xanımı haqqında danışanda gözləri sevgi ilə parıldayır, gülümsünür. Hiss olunur ki, ürəyi hələ də sevgi ilə döyünür. Mən sağollaşıb çıxıram. Uzaqdan səsləri gəlir: "Ay Nənəş, yaxşısanmı, sənə qurban olum"...

İradə Cəlil

# O, bu gün də döyüşdüyü yerləri yenidən görmək həsrətindədir

Əmi və qardaşoğlu Tahirovlar kəndlərində sağ qalan yeganə Böyük Vətən müharibəsinin iştirakçılarıdırlar. Onlar cəbhəyə bir evdən yollandılar. Bir məqsəd uğrunda ələ silah götürdülər. Müxtəlif cəbhələrdə olsalar da eyni bir amal - Vətən torpağını xarici işğaldan qorumaq, faşizmin sonuna çıxmaq uğrunda döyüşdülər. Bunun üçün cəbhəyə yollanan 100 minlərlə soydaşlarımızdan olsalar da, hazırda kəndlərində yaşayan yeganə Böyük Vətən müharibəsi iştirakçılarıdır. Söhbət Tovuz rayon İsələr kənd sakinləri İslam və onun qardaşı oğlu İkram Tahirovlardan gedir. Tovuz rayon İsələr kənd sakini İslam Tahirov 1918-cu il təvəllüdlü İslam Ağalar oğlu öz missiyasına daha tez, 1939-cu ilin əvvəllərindən başlayıb. Finlandiya, Polşa, Ukrayna cəbhəsində gedən döyüşlərdə iştirak edib. Döyüşlərin birində ayağından yaralansa da, müalicəsi bitdikdən sonra yenə ön sıralarda yerini alıb. Təəssüf ki, İslam kişinin eşitmə və yaddaş sarıdan çətinlikləri baxımından ondan cəbhə xatirələri haqda çox az məlumat ala bildik. Lakin hərbi biletində olan rəngarənglik veteranın şərəfli döyüş yolunun bir qismini az da olsa özündə əks etdirib. Hazırda 99 yaşı olan İslam Tahirovun 20 nəvə 25 nəticəsi var. Onun qardaşı oğlu İkram Tahirovun isə 92 yaşı olmasına baxmayaraq çox gümrahdır və hafizəsi yerindədir. Bir gündə olsun bir yerdə dayanmır, rayon mərkəzinə gedir, cəbhə yoldaşlarını, mülki dostlarını axtarır, hər birinə baş çəkir, onları yaddan çıxarmır.

1925-ci il təvəllüdlü İkram Tahirov orduya 1943-cü ilin may ayında çağırılıb. Bir müddət Sumqaytda təlim keçdikdən sonra qatarla Rostova gətirilib və buradan 77-ci Azərbaycan milli atıcı diviziyasının tərkibində döyüşlərə qatılıb. Onun sözlərinə görə, geri çəkilən alman ordusunu təqib edərək düz 28 gün gecəli-gündüzlü yol gediblər. Ukraynada artıq sovet qoşunlarının çatdığını görən alman ordusu geri dönərək döyüşə başlayıb.

"Atılan mərmilərin sayı hesabı yox idi. İki həftə partlayan mərmilərin toz-dumanından heç yer görünmədi. Qırılan əsgərləri də sayı-hesabı yox idi. Bir yerdə getdiyimiz 7 həmkəndlimdən heç biri sağ çıxmadı bu döyüşdən. Mənimsə qəlpə sol qolumdan girib sümüyü də ikiyə bölüb qırağa çıxmışdı. Bu döyüşdən sonra qulluq elədiyim 105-ci alay demək olar ki tamamilə qırıldı. Amma əsas o idi



ki, sonunda qalib gələ bilmişdik" - deyir İkram Tahirov.

Yaralandıqdan və bir müddət hospitalda müalicə aldıqdan sonra cəbhəyə yararlı olmayacağını və arxa cəbhədə daha səmərəli ola biləcəyini nəzərə alaraq ordudan tərxis olunub. Kəndlərinə gəldikdən sonra isə sovxozda işləmədiyi iş, qatlaşmadığı çətinlik qalmayib. Arxa cəbhədə də "hər şey vətən üçün" deyib gecə-gündüz çalışıb. Dəyirmançı, sürücü, ferma müdiri, sovxoz direktoru kimi işlərdə çalışıb. 1956-cı ildə Moskvada at minmək sərgisində iştirak edərək mükafat alıb. Bu gün də cəbhə xatirələrini yaddan çıxarmır İkram Tahirov. "İmkanım ola Rostovdan başlayıb getdiyimiz yolları addımaddım gəzib taparam. Vuruşduğum, yaralandığım yerləri birdə görmək istəyərəm. Şükür Allaha, bunun üçün ayağım sağlamdır, gözüm görür, düşüncəm yerindədir. Nə edim, bunun üçün gərək maddi imkan da yerində ola" - deyir İkram kişi. 8 övlad atası olan İkram Tahirovun 28 nəvə 38 nəticəsi var: "Qabağıma gəlsələr bəlkə tanıya bilərəm". Gümrah qaldığına vurulan eyhama isə "Hələ bir ruhani havası çalına, onda görəsiz" - deyə zarafat edir.

İlham Mustafa

# Onun arzusu gələcək nəsillərin firavan yaşamasıdır

Ədilov Nazim Həmid oğlu 1931- ci ildə Ağdaş rayonunun Hüşün kəndində anadan olmuşdur. 1937-1947 - ci illərdə Ağdaş rayon Kükəl kənd məktəbində təhsil almışdır. 1947 - ci ildə Azərbaycan kənd təsərrüfatı İnstitunun Zootexnika fakültəsinə daxil olmuşdur. Universiteti bitirdikdən sonra təyinatla Şamaxı rayonuna göndərilmiş, bir il orada ixtisası üzrə işlədikdən sonra 1953- cü ildə Ağdaş rayonuna gəlmiş, 2000 - ci ilin mart ayına qədər Ağdaş rayonunda müxtəlif vəzifərdə işləmişdir. O cümlədən Ağdaş rayon Kənd Təsərrüfat idarəsində uzun müddət Baş Zootexnik işləmişdir.

O, 1966- cı ildə Elmi Tədqiqat Heyvandarlıq İnstitunda aspiranturaya qiyabi daxil olmuş və 1970 - ci ildə aspirantiuranı qurtararaq Kənd Təsərrüfatı Elmlər Namizədi adını almışdır.

2000- ci ildən fərdi təqaüdə çıxmış və Kənd Təsərrüfatı Elmləri Namizədi kimi fəaliyyətini davam etdirmişdir. Hazırda Böyük Vətən müharibəsində arxa cəbhənin iştirakçısı kimi rayonda gənclərlə vətənpərvərlik işlərində fəal iştirak edir. Əmək və müharibə veteranıdır. Əmək fəaliyyətinə görə Dövlət tərəfindən müxtəlif fəxri adlarla təltif olunmuşdur.

N. Ədilov hazırda Ağdaş Rayon Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatın idarə heyətinin üzvüdür. Eyni zamanda Ağdaş rayon Ağsaqqallar Şurasının da



nümayəndəsidir. Rayonda keçirilən bütün tədbirlərdə aktiv iştirak edir. O, Böyük Vətən müharibəsi arxa cəbhəsində çalışmış və fədakar əməyinə görə medalı ilə təltif olunmuşdur. Eyni zamanda Böyük Vətən müharibəsində Qələbənin 60 və 70 illiyi yubiley medalları ilə təltif olunmuşdur.

Hacı Nazim bizimlə söhbətində vurğuladı ki: "İqtisadiyyatımızın yenidən qurulmasmda və təşkilində Ulu öndər Heydər Əliyevin və onun uğurlu davamçısı Prezidentimiz İlham Əliyevin rəhbərlikləri sahəsində böyük dönüş yaranmış və nəticəsi uğurlu olmuşdur. Bunun nəticəsində iqtisadiyyatımız çox etmişdir. Mən bir 86 yaşlı ağsaqqal vətəndaş olaraq bu iqtisadi siyasəti alqışlayıram və dəstəkləyirəm. Çünki bunun nəticəsində gələcək nəsillərimiz fıravan yaşayacaqlar."

Şah Səlimov
Ağdaş Rayon Veteranlar
Təşkilatının sədri

# Avtobusda yer olmadı, ölümdən qurtardı

İndi o Ağdam rayonunda - cəbhə xəttinə yaxınlığında yaşayan son Böyük Vətən müharibəsi iştirakçısıdır."Onda radioda dedilər ki, iyunun 22-də saat 4-də bizə hücum olub, Kiyev bombalanıb, müharibə başlayıb. Hələ o vaxt belə də söz gəzirdi ki, Hitler deyib "ayaqqabımı bir dəfə Berlində, ikinci dəfə Moskvada siləcəyəm". Bəşər tarixinin ən qanlı müharibəsinin başlanmasını Böyük Vətən müharibəsi veteranı Hümbət Sadıqov belə xatırlayır. Sovet İttifaqında elan edilən ümumi səfərbərlik, o vaxt 19 yaşı olan Hümbət Sadıqovu doğulduğu Ağdam rayonunun Yusifcanlı kəndindən uzaq Ukrayna cəbhəsinə aparıb çıxarır. 1941-ci ildən 77-ci dağ atıcı diviziyanın tərkibində alman faşistlərinə qarşı döyüşür. 95 yaşlı müharibə veteranı deyir ki, almanlar sovet ordusunun müqavimətini qırmaq üçün təkcə hərbi gücdən deyil, həmçinin psixoloji vasitələrdən də istifadə edirdilər: "Alman təyyarələrindən o vaxtkı sovet rəhbərinin Moskvanı tərk edib qaçdığına dair karikaturalar və təslim olan əsgərlərə toxunulmayacağı haqqında vərəqələr atılırdı. Belə vərəqələri özündə saxlayan əsgərləri isə ən ağır cəza gözləyirdi".

1943-cü ilə cəbhədə vəziyyət sovet ordusunun xeyrinə dəyişəndə, onun döyüşdüyü diviziya Voroşilovqrad (indiki Luqansk) şəhərini düşməndən təmizləmək üçün hücuma keçir. Döyüşün dəhşətlərini təsvir edən Hümbət Sadıqov deyir ki, meyitlərin sovet və ya alman əsgərinə məxsus olduğunu yalnız düymələrdəki oraq-çəkicdən ayırd etmək olurdu. Həmin il onun döyüşdüyü diviziya Simferopol şəhərini də azad edir. Bu döyüşdə Hümbət Sadıqov ayağından yaralanır. Yaralıları götürməyə gələn avtomobildə yer olmadığından, o, döyüş meydanında qalır. Elə bu təsadüf də Hümbət Sadıqovun həyatını xilas edir. "Bəlkə 10 yerində avtomat gülləsi olan bir avtobus gəldi. Mənimlə birlikdə bir qoca rus da var idi. İkimizə yer olmadı. Mən Allaha yalvarırdım ki, kömək olsun bizə, rus da öz dilində dua edirdi. Gördük avtobus gedir, almanların da təyyarəsi aşağı ilə gəlirdi. Gəldi qalxdı yuxarı, çevrildi, bombanı atdı avtobusun üstünə. 14-15 adam var idi avtobusda, tibb işçiləri qarışıq hamısı öldü" -deyir Hümbət Sadıqov

Daha sonra döyüş yoldaşları onu cəbhə xəttindən götürərək hərbi hospitala çatdırır. Hümbət Sadıqov deyir ki, hospitalda müalicə alanda xalq şairi Səməd Vurğunla da görüşür. "Dedilər "zemlyakın" gəlib. Dedim nə gəzir



burada mənim "zemlyakım"? Qapı açıldı, şəklini görmüşdüm, tanıdım ki, Səməd Vurğundur. Telimi sığalladı. "Səadət nəğməsi" adlı kitabı var idi, qoydu yastığımın altına" - şairlə görüşünü belə xatırlayır Hümbət Sadıqov. Sağaldıqdan sonra Hümbət Sadıqov yenidən cəbhəyə qayıdır. 1944-cü ildə Rumıniyanın faşistlərdən təmizlənməsində iştirak edir. Döyüşlərdən birində yaxınlığında partlayan mərmi onun sol ayağını itirməsinə səbəb olur. Ordudan tərxis olan Hümbət Sadıqov qələbə xəbərini Azərbaycana qayıdandan bir il sonra radioda eşidir. İndi o Ağdam rayonunda - cəbhə xəttinə yaxınlığında yaşayan son Böyük Vətən Müharibəsi iştirakçısıdır. Doğma kəndi Yusifcanlı 24 ildir işğal alındadır. Deyir ən böyük arzusu ölməzdən əvvəl daha bir qələbə xəbərini eşitməkdir. Qarabağın işğaldan azad olunması xəbərini...

Ramil İbrahimov

# Polis veteranları cəbhə bölgəsində görüşlər keçiriblər



Daxili İşlər Nazirliyinin (DİN) Veteranlar Şurasının sədri, istefada olan polis polkovniki Fərhad Süleymanov və bir qrup polis veteranı cəbhə bölgəsində - Tərtər, Goranboy, Xocalı rayonlarında səfərdə olublar. İlk öncə Tərtər rayon mədəniyyət evində Rayon İcra Hakimiyyətinin və Polis Şöbəsinin təşkilatçılığı ilə "Milli vətənpərvərlik tərbiyəsi" mövzusunda orta məktəblərin pedaqoji kollektivləri, yuxarı sinif şagirdləri, şəhid ailələri ilə görüş keçirilib. RPŞ-nin rəisi, polis polkovniki Rauf Məcidov qeyd edib ki, bu gün ölkəmiz dünya birliyində öz layiqli yerini tutub. Azərbaycanda keçirilən mötəbər tədbirlər ölkəmizdə sabitliyin layiqincə qorunmasının və davamlı inkişafın təmininin əyani təsdiqidir. Azərbaycanın hərbi qüdrətinin durmadan artmasının, dövlətimizin başçısının cəbhə bölgəsinə tez-tez səfərlər etməsinin və hər dəfə hərbçilərlə, rayon ictimaiyyəti ilə keçirdiyi görüşlərin əhalidə ruh yüksəkliyi yaratdığı diqqətə çatdırılıb. R.Məcidov sabahımızın qurucuları olan gənclərin onlara göstərilən etimadı layiqincə doğrultmaları üçün vətənpərvərlik ruhunda tərbiyə olunmalarının əhəmiyyətindən danışıb. DİN-in Veteranlar Şurasının sədri F.Süleymanov çıxışında bildirib ki, bu gün Azərbaycanda həyata keçirilən gənclər siyasətinin, gənclərə göstərilən diqqət və qayğının əsasında ölkəyə layiqli vətəndaş və sağlam nəslin yetişdirilməsi dayanır. Müstəqilliyin üçüncü onilliyinə qədəm qoymuş Azərbaycana məhz milli şüura malik, vətənpərvər gənclər lazımdır. Ümummilli Liderin əsasını qoyduğu müstəqil Azərbaycanın gənclər siyasəti məhz bu amala xidmət edir. O bildirib ki, vətənpərvərlik hissi tariximizə, doğma torpaqlarımıza bağlılıqdan və onları düşməndən qorumaqla başlayır. Hər bir ölkənin gələcəyi onun gənclərinin düşüncə tərzindən, intellektual səviyyəsindən asılıdır. Sonra müvafiq tədbir Goranboy rayonunda keçirilib. Tədbir iştirakçıları ulu öndər Heydər Əliyevin abidəsini və şəhidlər xiyabanını ziyarət ediblər.

İctimaiyyətin nümayəndələri ilə görüşdə çıxış edən istefada olan polis polkovniki F.Süleymanov, Rayon Polis Şöbəsinin təmsilçiləri vətənpərvərlik hissinin böyüməkdə olan nəslə aşılanması, uşaq, yeniyetmə və gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması, həmişə təlim-tərbiyə işinin ən mühüm istiqamətlərindən, təhsil müəssisələrinin ən vacib vəzifələrindən olduğunu diqqətə çatdırıblar. Vurğulanıb ki, gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin daha da inkişaf etməsinə təkan verir, onların cəmiyyətdə təsdiq olunmaları üçün şərait yaradır. Goranboy rayonunun Aşağı Ağcakənd qəsəbəsində polis veteranları və tədbir iştirakçıları əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsinə ucaldılmış abidəni ziyarət ediblər. Görüşdə dövlətimizin qüdrətinə, sabahımıza inam ifadə olunub. Çıxış edənlər aprel döyüşləri zamanı ordumuzun qüdrətinin bir daha şahidi olduqlarını bildirib, gənclərimizin vətənpərvərlik ruhunu yüksək dəyərləndiriblər. İctimaiyyətin təmsilçiləri işğal altındakı torpaqlarımızın tezliklə azad olunacağına əminliklərini bildiriblər. Görüşlərdə DİN-in Şəxsi Heyətlə İş İdarəsinin əməkdaşları - polis polkovnik-leytenantları Elxan Mürsəlov və Laçın Paşayev iştirak ediblər.

AZƏRTAC

# Azərbaycan pələngi

Hacı Məhəmmədin əvvəlki adı Vitali Aruşkin olub. 1949-cu ilin sentyabr ayının 2-də Bakının Keşlə qəsəbəsində anadan olub. Özü də düz Keşlə məscidinin yanında. Atası Aleksandr Voronejdən, anası Anna xanım isə Saratov vilayətindəndir. 1943-cü ildə müharibənin qızğın çağlarında gənc Aleksandr və Anna Rusiyadan Bakıya pənah gətiriblər. Keşlə qəsəbəsində məskunlaşıblar. Burada da tanış olub ailə qurublar. Üç övladları olub. Vitali Keşlədə 201 saylı orta məktəbi başa vurduqdan sonra 1969-1974-cü illərdə Bədən Tərbiyəsi və İdman İnstitutunu bitirib. Gənc Vitalinin idmana marağı orta məktəbdən olub. İdmanın sambo və sonralar cüdo növü ilə məşğul olub. "Lokomotiv" Dəmir Yol İdman klubunda məşqçi işləyib. Sambo və cüdo üzrə isə ordu idman klubunda baş məşqçilik edib. Dəfələrlə Azərbaycan çempionu olub. O illərdə yeniyetmələr arasında Respublika Yığma Komandasının sambo üzrə 1-ci baş məşqçisi Sabir Hüseynov, 2-ci məşqçi isə Vitali Aruşkin idi. Vitali yeniyetmələrin cüdo üzrə Respublika Yığma Komandasının baş məşqçisi vəzifəsini də yerinə yetirirdi. Vitalinin dediklərindən: "Yuxuda mənə 3 dəfə qeybdən səs gəlib və deyirdilər ki, sən müsəlman olmalısan. 50 yaşımda namaz qılmağa başlamışam. Və İslam dinini qəbul etmişəm. Çünki Quran insanları düzlüyə, mərhəmətə, saflığa, dünyanı dərk etməyə çağırır.

Məhz İslam dinini qəbul etdikdən sonra idman sahəsində dalbadal uğurlarım olub. Azərbaycan televiziyası mənim haqqımda 12 dəqiqəlik film çəkəndən sonra bu böyük əks-səda doğurdu. Rus milliyətindən olan bir idmançının müsəlmançılığı qəbul etməsi hamıya maraqlı gəlirdi. Filmdə mənə sual verirlər ki, kim deyə bilər ki, mən müsəlmanam? Cavab verdim ki, mənim Allaha inamım var. Arzum odur ki, namaz qılam, oruc tutam, zəkat verəm və həccə gedəm. Bu sözlər dahi şəxsiyyət ulu öndərimiz Heydər Əliyevin çox xoşuna gəlib. Bu filmə çoxları baxıb. Ümummilli liderimiz Heydər Əliyev bu filmə baxandan sonra tapşırıq verib ki, rus millətindən olan bu insanı təcili Məkkəyə-Həcc ziyarətinə göndərin və ondan muğayat olun.

2001-ci ildə Həcc ziyarətində olmuşam. Hər dəfə Heydər Əliyevə dua edirəm ki, məni 9 milyon insanın içərisindən seçib müqəddəs məkanı ziyarət etmək üçün Həccə göndərib. Allah ona qəni-qəni rəhmət eləsin. Mən Dünya çempionu olmağa can atırdım. Allaha inamım məni arzuma çatdırdı. 4 dəfə dalbadal dünya mükafatçısı oldum. Yunanıstanda sambo üzrə bürünc Fransada, Özbəkistanda və yenidən Yunanıstanda bürünc mükafatlara layiq görüldüm. Minsk şəhərində sambo üzrə keçirilən mötəbər yarışda isə dünya çempionu oldum. Sonra keçdim cüdo idman növü ilə məşğull olmağa. Çoxları mənə deyirdilər ki, idmanın bu olimpiya növü çox çətindir. Mən isə ruhdan düşmür, yarışlara ciddi hazırlaşır, pələng kimi irəli atılıb ardıcıl qələbələrə nail olurdum. Uca Allahımın mənə köməyini çox hiss etmişəm. 2009-cu ildə İtaliyanın İnqnano şəhərində ağır çəkidə cüdo üzrə yarışda parlaq qələbə qazandım və Avropa çempionu oldum. Bundan sonra 4 dəfə çempion oldum. Almaniyada, Rumıniyada, Birləşmiş Ərəb Əmirliklərində ağır çəkidə yarışların bürünc mükafatçısı oldum. Onu da qeyd edim ki, 2001-ci ildə Həcc ziyarətinə gedərkən şəxsiyyət vəsiqəmdə Məhəmməd Müslümzadə ad-soyadımı seçmişdim. Bu adla da məşhurlaşdım və indi Hacı Məhəmməd kimi tanınmağımdan qürur duyuram. 2002-ci ildə ikinci dəfə Həcc ziyarətində oldum. Məni ora çəkən qüvvə yenə ardınca apardı. 2008-ci ildə Dünya çempionu oldum. Şeyxülislam Allahşükür Paşazadə şəxsən məni öz vəsaiti hesabına 3-cü dəfə müqəddəs Məkkə, Mədinə ziyarətgahlarına göndərdi". Hacı Məhəmməd onu da bildirdi ki, 1985-1990-cı illərdə keçmiş Sovet hərbi qruplarının baş məşqçisi kimi Almaniyada işləmişdir. 2002-2005-ci illərdə isə Kanadada cüdo üzrə məşqçi olmuşdur. Orada "Azərbaycan pələngi" adlı idman klubu açmışdır. Hacı Məhəmməd deyir ki, hər iki ölkədə mənə dəfələrlə qalıb işləməyi, hər cür şəraitin yaradılacağını vəd etsələr də, doğma vətənim olan Azərbaycanı heç nəyə dəyişmədim. Bakı mənim doğma şəhərimdir. Keşləli balasıyam. Vətənin torpağına qurban olum. Bakı mənim ürəyimdir. Bu sözləri deyərkən Hacı Məhəmmədin gözlərində yaş gördüm. Qəlbində vətən sevgisi necə də güclü idi. Hacı Məhəmməd sözünə davam edərək deyir:-Keçmiş SSRİ-də sambonun yaradıcısı Anatoli Arkadyeviç Xarlampiyev yarışlarda güləşməyimə baxarkən mənə "Azərbaycan pələngi" adını vermişdi. Elə ona görə də Kanadada açdığım kluba da məhz "Azərbaycan pələngi" adını vermişdim.



Hacı Məhəmməd həyatının gözəl anlarından birini xatırlayaraq deyir: "Ç.İldırım adına Sarayda sambo üzrə beynəlxalq turnir keçirilirdi. Dünya mükafatçısı, məşhur idmançı İspaniyalı Santanos Lorensoya və Avropa çempionu Konstantin Dolçinova (Bolqarıstan) qalib gəldim. Məni bütün saraya toplaşan tamaşaçılar alqışlayırdı. 2002-ci ildə növbəti yarışlarda Dünya mükafatçısı olduqdan sonra Azərbaycan Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev bizi qəbul etdi və yarışdan qayıdan gün mənə "07" markalı "jiquli" avtomobili bağışladı. Mənə bir veteran idmançı, Hacı kimi hər zaman hörmətlə yanaşır. Onun sayəsində çoxlu dostlar qazanmışam. 65 yaşında Birləşmiş Ərəb Əmirliklərində cüdo üzrə keçirilmiş yarışda Dünya mükafatçısı (bürünc medal) oldum. "Azərbaycan pələngi" ölkəmizi çıxış elədiyi bütün yarışlarda şərəflə təmsil etmişdir. Ömür-gün yoldaşı Fəridə xanımla Hacı Məhəmmədin Nərimanov rayonunda keçirilmiş deputat və prezident seçkilərində necə fəal iştirak etdiklərinin şahidi olmuşam. Hazırda təqaüddə olan 68 yaşlı veteran idmançıdan gənc idmançılar çox şeyi öyrənməlidir. Ona gələcək fəaliyyətində uğurlar arzu edirik.

Rauf İLYASOĞLU

# 95-летний ветеран Александр Гритченко: «Нигде с такой заботой не относятся к ветеранам ВОВ, как в Азербайджане»

Начало в предыдущем (83-84) номере

На наш вопрос, кто помогает ему сегодня издавать книги, Сан Саныч ответил так:

- Долгое время приходилось самому находить средства. Наша организация дает деньги, но тираж бывает очень маленьким. И вот однажды я набрался смелости и написал письмо президенту Фонда Гейдара Алиева, ныне Первому вице-президенту Азербайджана Мехрибан Алиевой о своей идее написать о деятелях литературы и культуры в годы войны. После этого все чудесным образом изменилось: мне выделили деньги на издание книги, которую я назвал «После боя». А буквально на днях выйдет моя 51-я по счету книга «Дружба народов и победа» в соавторстве с полковником Д.Камиловым.

В этой книге будет много трогательных фотографий, документов. Один из разделов – «На братских могилах не ставят крестов», как у Высоцкого в песне, - говорит А.Гритченко. - Я долгое время провел в бюро похорон, чтобы найти все фамилии, а их очень много, больше 2,5 тысячк В книге много материалов, очерков о тех, о ком почти не писали. Например, о роте Мелика Магеррамова, герое Советского Союза, которая отличилась на Украине при форсировании реки Днепр. И награду ему вручал маршал Рокоссовский, который сказал: «Родина многим Вам обязана, лейтенант Магеррамов. Помимо Вашей личной доблести, Вы смогли воспитать замечательных солдат. Фронт гордится такими офицерами, как Вы». Прекрасно же!.. (голос Сан Саныча вновь дрожитк) Или Гафур Мамедов – уничтожил в одном бою в битве за Кавказ 15 вражеских солдат, один миномет с расчетом и спас жизнь командиру, лейтенанту Зиновию Синевскому, прикрыв его своим телом, а до этого участвовал в обороне Одессы, Херсона. Это было 18 октября 1942 года, а в марте 1943 года ему присвоили звание Героя Советского Союза посмертнок

А какие женщины воевали! Причем, не только медсестрами служили. Лейла Мамедбекова – первая летчица-азербайджанка, Шовкет Салимова – капитан корабля, Катюша Михайлова, вынесшая с поля боя 150 офицеров, ходила в разведку - я могу долго перечислятьк - рассказывает А.Гритченко.

- Впервые в этой новой книге напишут и обо мне, ведь она выйдет в соавторстве. Тоже с документами, фотографиями, наградами, - говорит Сан Саныч и снова переводит тему, не желая много говорить о себе.

- Я лично поблагодарил за помощь в издании книги Мехрибан ханум в прошлом году, в день 9 мая, когда Президент Ильхам Гейдарович Алиев и Мехрибан ханум пришли на встречу с ветеранами. Помню, как многие из наших (ветеранов – прим. ред.) потом удивлялись: о чем, мол, ты с первой леди говорил? (улыбается).

Я очень благодарен Ильхаму Гейдаровичу и Мехрибан ханум, потому что они не на словах, а на деле помогают нам. В год 70-летия Великой Победы над фашизмом Президент Ильхам Гейдарович Алиев, выступая перед ветеранами, сказал очень трогательные слова: «Все люди, сражавшиеся на фронте и самоотверженно трудившиеся в тылу, достойны самого глубокого уважения. Ваш пример является ярким образцом для нынешних и будущих поколений», - говорит Сан Саныч, а мы лишний раз поражаемся его памяти. Он цитирует слова главы государства наизусть! - Мне было приятно еще и то, что Президент, заметив орден «Шохрат», который мне вручили до этого, отметил: «Вижу, вижу, еще раз поздравляю Вас!»

- Я и другие ветераны очень благодарны Ильхаму Гейдаровичу за заботу, которую он проявляет по отношению к нам. Нам была выделена единовременная помощь в размере 1000 манатов, а такую сумму нигде, поверьте, ветеранам не выдают. И Гейдар Алиевич Алиев тоже очень тепло относился к ветеранам, называя их самыми дорогими и уважаемыми людьми. Я благодарен Гейдару Алиеву и за то, что буквально через три месяца после его прихода к руководству страной мне дали звание «Заслуженный работник культуры», а еще через 20 лет – «Заслуженный пропагандист», я ведь читаю лекции. Посольство России тоже помогает нам, и не только в день Победы. Другие государственные организации Азербайджана тоже помогают, а Министерство культуры и туризма часто приглашает на выступления. А еще я очень доволен новым Мемориальным комплексом, он построен с большой душойк

Словом, я жизнью вполне доволен, мы, ветераны, не чувствуем себя обделенными вниманием. Могу сказать, что нигде так не относятся к ветеранам Великой Отечественной войны, как в Азербайджане. Более того, Ветеранская организация предоставила мне машину, причем, с условием, что я могу пользоваться ею по любым своим запросам. Дело в том, что у меня есть проблемы с ногами, приходится ходить с палочкой. Но я езжу только на работу и с работы, а по своим другим делам – в магазин или еще куда предпочитаю брать такси сам. Это не дело - напрягать людей по пустякам, - с достоинством говорит Сан Саныч.

- В ноябре будет 70 лет, как я имею отношение к печати. Знаете, недавно мне дали звание члена Международной ассоциации писателей баталистов и маринистов, - говорит он и демонстрирует нам красивое удостоверение. - Я очень, очень горд этим. Творческой работой я ведь занимаюсь уже более 70 лет. И сам никогда не изъявлял желание вступить в Союз писателей, потому что считал себя лишь автором книг, рассказчиком историй подвигов героев. Но раз меня признали сами, я очень рад. И еще меня без просьб с моей стороны наградили дипломом за верное служение отечественной литературе и дали медаль. А.Гритченко одну за другой показывает нам свои книги, разложенные на столе. Конечно, тут не все, но и количество тех, что он нам показывает, удивляет. «Героизм сынов и дочерей Азербайджана», «Адмиралы Каспия», «Победа и память» - все эти книги рассказывают о подвигах азербайджанских офицеров и солдат.

- Я считаю своим долгом, причем, это желание идет от сердца, рассказать всему миру о том, какой огромный вклад внес Азербайджан в победу над фашизмом. Имена наших героев – всех – должны быть известны, их должны помнить!

Ой, я отвлекся, видите, хотел ведь рассказать, как попал сюда, на свою новую Родину. Так вот, после Камчатки я получил перевод в Баку, в Каспийскую военную флотилию. Это было 10 июня 1953 года, вот уже больше 65 лет я здесь. На Камчатке я дослужился до начальника отдела рядовой подготовки, и сюда перевелся на такую же позицию. Мне тогда шел 31 год, и однажды меня командующий военсовета пригласил на должность заместителя ответственного редактора газеты «Каспиец». И я начал работать. Несмотря на то, что эта должность не предполагала творческой деятельности, я продолжал писать. Любил выходить в море, на учения, как делал это и на Камчатке – выходил на всех судах и даже на подлодках.

Я уже почти 57 лет работаю в Ветеранской организации Азербайджана, со дня ее создания. Когда я бывал в Москве, встречался со многими маршалами и героями Советского Союза: Коневым, Маресьевым, Батовым и другими, делал интервью, писал очерки. А в Азербайджан приезжали Покрышкин, Кожедуб, Каманин, я делал с ними интервью. Причем, всегда был одним из первых. По роду своей деятельности я также объездил все районы Азербайджана, куда приезжал по заданию ДОСААФ как лектор, и везде нас встречали тепло и с огромным гостеприимством. Жаль, что я так и не успел выучить язык, только несколько слов толькок А вот мой сын, Юрий, его прекрасно знал, - говорит Сан Саныч, и его голос начинает дрожать, а на глаза наворачиваются слезы.

- Я до сих пор не могу принять потерю сына, он ушел из жизни на 59-м году. Он пошел по моим стопам, окончил Военно-морское училище, был капитаном 1 ранга, служил в Военно-морских силах, в генеральном штабе Минобороны, служил в Карабахек Он был очень талантливым, писал стихи. И вотк надо же, как будто предвидел свой уход, - говорит Сан Саныч и протягивает нам сборник стихов под названием «Жил-был я».

Мы делаем паузу в беседе, ожидая, когда наш дорогой собеседник успокоится.

- До сих пор переживаю. Если бы не моя супруга, Роза ханум, не знаю, смог бы я это пережить, и смог бы вообще до сих пор жить. Она – моя главная опора, мой друг, мой любимый человек. Она помогает мне писать мои книги, ведь у меня со зрением в последнее время проблемы. Я диктую ей текст, а она записывает. К тому же, у нее очень красивый почерк.

Мы не представляем свою жизнь друг без друга. И я очень, очень благодарен ей за все: за то, что она рядом, за то, что любит и поддерживает меня во всем. Это очень важно, - говорит Сан Саныч.

В завершении нашей беседы Сан Саныч, как настоящий лектор, сказал:

- Я думаю, достаточно для статьи. Для меня самое священное – это память о Великой Отечественной войне. Для многих – это уже история, а для меня и тех, кто прошел через войну, это – огромная часть нашей жизни. Это – тысячи жизней, отданных за Родину, и забывать об этом нельзя ни в коем случае!

А закончить я бы хотел так:
Родная земля моя,слушай меня,
Считай меня воином с этого дня,
Солдатом, который со смертью знаком,
Сегодня перо мое стало штыком.
То знамя, которым я в мире храним,
Я сделаю стягом своим боевым,
Страну, что лелеяла юность мою,
Я сам защищать присягаю в бою.

Это – Самед Вургун, - поясняет он и продолжает:

- В первую годовщину Победы в «Комсомольской правде» была напечатана беседа журналиста Василия Пескова с маршалом Жуковым. Хочу привести вам слова Жукова, которые для меня стали девизом жизни. Он сказал: «Сколько прекрасных молодых людей мы потеряли. Сколько матерей не дождались с войны своих детей. С командного пункта я много раз видел, как молодые солдаты поднимались в атаку. Это – страшная минута подняться во весь рост, когда смертоносным металлом пронизан воздух. И они поднимались. Многие из них только-только узнали вкус жизни: 19-20 лет, лучший возраст в обычной человеческой жизни, все впереди. А для них часто был впереди только немецкий блиндаж, изрыгавший пулеметный огонь. Дорогой ценой досталась нам мирная тишина. Мы, люди старшего поколения, этого никогда не забудем. Важно, чтоб об этом помнила молодежь».

На лекциях, завершая выступления, я обычно привожу слова Рокоссовского из его книги «Солдатский долг»: «1 мая 1945 года над Рейхстагом взвилось знамя Победы. Наши солдаты ликовали. Я смотрел на их восторженные лица и радовался вместе с ними. Победа – это величайшее счастье для солдата, осознание того, что ты победил врага, отстоял свободу Родины, вернул ей мир, выполнил свой долг. Долг тяжелый, но прекрасный, выше которого нет ничего не земле».

И разрешите в заключение нашей с вами беседы процитировать известную песню:
Поклонимся великим тем годам
Тем славным командирам и бойцам
И маршалам страны и рядовым
Поклонимся и мертвым, и живым
Всем тем, которых забывать нельзя
Поклонимся, поклонимся друзья
Всем миром всем народом всей землей
Поклонимся за тот великий бой
Всем миром всем народом всей землей
Поклонимся за тот великий бой!

(Отметим, что ВСЕ цитаты Сан Саныч читает наизусть).

В этом году 9 мая ветераны ВОВ вновь соберутся на торжественные мероприятия в мемориальном комплексе, посвященном Великой Отечественной войне. Мы поздравляем этих дорогих нам людей, которые рисковали своей жизнью, чтобы мы с вами жили сегодня. Этих людей надо беречь, о них надо помнить, им надо уделять внимание всегда. И мы очень рады, что нам довелось познакомиться и подружиться с таким неординарным человеком, как Александр Гритченко. Этот человек-легенда сочетает в себе удивительную стойкость духа и искреннюю трогательность, веру в себя, любовь к жизни и ставшему для него родным Азербайджану.

Наша редакция (и, уверены, наши читатели) от всей души поздравляет дорогого Сан Саныча (и в его лице – всех ветеранов Великой Отечественной войны) с Днем Победы и желает ему здоровья и долгих лет жизни!

Натали Александрова,
Бакинский рабочий

AZƏRBAYCAN VETERANI

# Bir qrup veteranın Qəbələ rayonuna səfəri

Biz-Bakı şəhərini təmsil edən bir qrup veteran (Nizami, Xətai, Binəqədi, Nərimanov, Nəsimi rayon Veteranlar Təşkilatının nümayəndələri) ailə üzvlərimiz ilə birlikdə, o cümlədən, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının əməkdaşları Azərbaycanın dilbər güşələrindən olan Qəbələ rayonuna səfər etdik.

Qəbələ rayonunun gəzməli və görməli məkanlarında olmaq, habelə Gilan Holdinq İstirahət Mərkəzində dincəlmək üçün Respublika Veteranlar Təşkilatının rəhbərliyi, Gənclər və İdman Nazirliyi tərəfindən yüksək səviyyəli şərait yaradılmışdır.

Orada olarkən bizi Gilan Holdinqin nümayəndəsi İlham müəllim qarşıladı və istirahət mərkəzinin kompleks şəraiti ilə tanış etdi. Uca dağların zirvəsinə aparan Kanatla meşənin gözəliklərini seyr etdik.

Eyni zamanda heyvanat aləmindən ibarət olan parklarda vəhşi heyvanlara tamaşa etdik. Sözsüz ki, bu maraqlı səyahət bizim hər birimizdə xoş əhval-ruhiyyə və gözəl təəssüratları yaratdı.



Bizim hamımızın istirahəti üçün yaradılan bu gözəl şəraitə və qayğıya görə RVT-in rəhbərliyinə, Gənclər və İdman Nazirliyi rəhbərliyinə dərin təşəkkürümüzü bildiririk.

Yəhya Ağayev,
Nizami RVT-nin sədri

## 1941-ci il iyunun 22-də Böyük Vətən Müharibəsi başlamışdır...

Həm gün faşist Almaniyası müharibə elan etmədən Sovet İttifaqına hücum etdi. Ölkənin ordu və əhalisi buna hazır deyildi. Müharibənin ilk günündə 1200 sovet təyyarəsi məhv edildi. Qırmızı Ordu motorlaşdırılmamışdı, 30-cu illərin sonunda həyata keçirilmiş Stalin repressiyalarının nəticəsində komanda heyəti az təcrübəli sərkərdələrdən ibarət idi. Sovet rəhbərliyi isə bütün bu vaxt ərzində özünü itirmiş vəziyyətdə idi və sovet xalqına yalnız iyulun 3-də müraciət edildi.

Bu müharibədə neftlə zəngin Bakı Hitlerə rahatlıq vermirdi. Alman qoşunları Qafqaza yaxınlaşırdılar. Hətta Bakının işğalı tarixi də təyin olunmuşdu - 25 sentyabr 1942-ci il. 1941-ci ildən 1945-ci ilədək davam etmiş müharibə zamanı ordu sıralarına Azərbaycandan 600 min nəfərdən çox insan cəlb olunmuşdu.

Azərbaycan SSR-in ərazisində 87 tabor, 1123 özünümdafiə dəstəsi yaradılmış, 77-ci atıcı, 223-cü atıcı, 396-cı atıcı, 402-ci atıcı və 416-cı atıcı diviziyalar formalaşdırılmışdı.

İlk Sovet İttifaqı Qəhrəmanı adını almış azərbaycanlı isə leytenant İsrafil Məmmədov oldu.

# Sumqayıt-Lüdviqshafen dostluğunun 40 illiyi

Dövlətlər arasında dostluq və beynəlmiləlçiliyin insanlar arasında da böyük siyasi əhəmiyyəti var ki, bu da xalqlar arasında iqtisadi və mədəni əlaqələrin möhkəmlənməsinə, əməkdaşlığın genişlənməsinə kömək edir.

Xalqların bir-birinə yaxınlaşması müstəqil Azərbaycan gənclərinin beynəlmiləlçilik ruhunda tərbiyə olunmasını nəzərə alaraq Leyla Qasımzadə işlədiyi 15 saylı orta məktəbdə şagirdlərin xahişini nəzərə alıb " Vilhelm Pik adına "Beynəlmiləl Dostluq Klubu" yaratmağı qərara aldı. 1968-ci ildə yaranan klub üzvlərinin sayı günü-gündən artmaga başladı. Leyla müəllimə klubun üzvülərinə müxtəlif ölkələrin ünvanlarını paylayaraq onlara məktublaşmağı təklif etdi. Polşa, Çexiya, Macarstan, Əfqanstan, Türkiyə və Almaniyanın müxtəlif şəhərlərindən məktəbimizin ünvanına çoxsaylı məktublar gəldi. Bununla biz tək məktəbimizi yox, eyni zamanda şəhərimizi də dünyaya tanıtdıq. Beləliklə Almaniyanın Kalbe şəhərindəki Vilhelm Pik adına məktəblə və Lüdviqshafen şəhərindəki Karl Boş adına gimnasiyası ilə dostlugumuz daha möhkəm oldu, hətta həmin məktəblərlə Dostluq və Əməkdaşlığa dair müqavilə də imzalamışıq. Şagird qrupunun Lüdviqshafendən Sumqayıta gəlişi və Sumqayıtdan Lüdviqshafenə gedişi bu dostluğu daha da möhkəmləndirdi. Deməli Lüdviqshafen tərəfidən bu dostluğun təməlini qoyan Albin Flek, Sumqayıt tərəfindən isə Leyla Qasımzadə oldu. Beləliklə məktəblər arasında yaranan bu dostluq, sonradan şəhərlər arasında dostluga çevrildi.



1977-ci ildə Ludviqshafen şəhərinin meri Ludviq Verner ilk dəfə olaraq Sumqayıta gəldi və şəhərlə tanışlıqdan sonra dedi: Hər iki şəhər arasında xeyli oxşarlıq var, hər ikisi sənaye şəhəridir, insanları əməksevər və mehribandırlar. Xəzər dənizi ilə Reyn çayını minlərlə kilometr ayırsa da Dostluğa sərhəd yoxdur demişdir. 1978-ci ildə isə Ludviq Verner Sumqayıtın İcrayyə Komitəsinin sədri Zülfü Hacıyevi Ludviqshafen şəhərinin 125 illiyinə dəvət etdi. Beləliklə Sumqayıt-Lüdviqshafen "Qardaşlaşmış" şəhərə çevrildi. 1981 ci ildə Ludviq Vernerin rəhbərliyi altında 120 nümayəndə heyyəti Sumqayıta gələrək Sumqayıtın məktəbləri, tarixi abidələri (Coratda) zavodları ilə yaxından tanış oldular. Sumqayıt əhalisi də qonaqları səmimi qarşılayıb, xoş əhval-ruhiyyə ilə yola saldılar.

Bu dostluq əlaqələrində yaxından iştirakına görə Ulu öndər Heydər Əliyev Leyla Qasımovanı "Xalqlar Dostluğu Ordeni" ilə təltif etmişdir.

Tamara Rufullayeva

## Allah rəhmət eləsin

Nərimanov Rayon Veteranlar Təşkilatının kollektivi

**Əli Kərim oğlu Kərimovun**

vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

---

Respublika Veteranlar Təşkilatının rəyasət heyəti Binəqədi Rayon Veteranlar Təşkilatının sədri Telman Hətəmova əzizi

**Hətəmov Qalibin**

vaxtsız vəfatından kədərləndiyini bildirir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

**"Azərbaycan Veteranı" qəzetinin elektron ünvanına (az.veteran@mail.ru) məqalələrinizi göndərməklə bizimlə əməkdaşlıq edə bilərsiniz. Qeyd edək ki, "Azərbaycan Veteranı" qəzetində dərc olunan məqalələrdəki faktlara və məlumatlara görə müəllif məsuliyyət daşıyır. Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazıla bilərsiz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Hesab nömrəsi**
**AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN**
**1 illik abunə haqqı - 15 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**
**Əlaqə telefonları: (012) 440- 21-08 012) 497- 63-58 (111)**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*
***Məsul katib***
*Səidə ABDULLAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:*** *Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:*** *Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi, 34*
***Əlaqə telefonu:*** *012 440-21-08*
***e-mail:*** *az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi*** *- 3486*
***Dövlət qeydiyyat tarixi*** *- 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1250*